

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 123 (23.535)

30 iyul 2020-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 29-da Qobustan rayonuna səfərə gəlib, ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

Prezidenti İlham Əliyev həmin gün Qobustanda koronavirusla xəstələrin müalicəsi üçün nəzərdə tutulan modultipli xəstəxananın açılışında iştirak edib.

* * *

Dövlətimizin başçısı iyulun 29-da İsmayıllı rayonuna səfəri zamanı xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət edib. Prezident İlham Əliyev İsmayıllıda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "DOST Evi" Yaradıcılıq, Sərgi və Satış Mərkəzinin təməlinin qoyulması mərasimində, Muğanlı-İsmayıllı (30 kilometr)-Təzəkənd-Ağbulaq-Qoşakənd avtomobil yolunun (8 kilometr), koronavirusla xəstələrin müalicəsi üçün nəzərdə tutulan modultipli xəstəxananın açılışında iştirak edib.

* * *

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Balakən rayonuna səfərə gəlib, 320 şagird yerlik Balakən Şəhər Uşaq İncəsənət Məktəbinin yeni binasının, Balakən regional "ASAN xidmət" mərkəzinin, "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin Balakən Avtomatik İdarəetmə və Nəzarət Mərkəzinin, Balakən-Qazbinə-İtitala avtomobil yolunun açılışlarında iştirak edib, "Bal meyvə" bağçılıq təsərrüfatı ilə tanış olub.



## Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üçüncü sessiyasından irəli gələn vəzifələr müzakirə olunub



Naxçıvan Muxtar Respublikası Prokurorluğunda keçirilən kollegiya iclasını Naxçıvan Muxtar Respublikasının prokuroru, II dərəcəli dövlət ədliyyə müşaviri Səbuhi Şahverdiyev açaraq bildirib ki, Prokurorluq Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını, "Prokurorluq haqqında", "Prokurorluq orqanlarında qulluqkeçmə haqqında" və digər qanunları, normativ-hüquqi aktları rəhbər tutaraq 2020-ci ilin birinci yarımilində ictimai-siyasi sabitliyin, cinayətkarlığa qarşı mübarizə və vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi işində yaxından iştirak edib, qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsində fəallıq göstərib.

Diqqətə çatdırılıb ki, həyata keçirilmiş zəruri profilaktik tədbirlər nəticəsində yetkinlik yaşına çatmayanlar və narkomanlar tərəfindən cinayət hadisələri törədilməyib, həmçinin peşə fəaliyyəti ilə əlaqədar jurnalistlərin təqib edilməsi və onlara təzyiqlər göstərilməsi ilə bağlı cinayət hadisəsi qeydə alınmayıb. Həmçinin həyata keçirilən tədbirlər nəticəsində ədalət mühakiməsində iştirak edən dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokurorları tərəfindən cinayət işlərinin materialları hərtərəfli öyrənilib, məhkəmə baxışı zamanı qaldırılmış hər bir vəsatətə əsaslandırılmış rəylər verilib, cəza təyini zamanı prinsipiallıq göstərilərək hökmlər üzrə ittiham tərəfindən tələb etdiyi cəzadan kəskin fərqlənən cəzaların təyin edilməsi hallarına yol verilməyib. Bununla yanaşı, vətəndaşların müraciətlərinə baxılması və onların qəbulu işinin düzgün təşkili də daim diqqət mərkəzində saxlanılıb.

Vurğulanıb ki, prokurorluq orqanları ümummilli lider Heydər Əliyevin ideyalarına sadiq qalaraq onun layiqli davamçıları – Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tövsiyə və tapşırıqlarına müvafiq olaraq bundan sonra da fəal vətəndaşlıq mövqeyi nümayiş etdirəcək, öz qüvvələrini səfərbərliyə almaqla digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqədə dövlətçiliyimizin maraqlarını, ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitlik və əmin-amanlığın qorunması, cinayətkarlığın bütün təzahürlərinə və hər cür qanunsuzluqlara qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsi üçün səlahiyyət hədləri daxilində bütün zəruri tədbirlərin görülməsini təmin edəcək, ölkəmizin daha da qüdrətlənməsi yolunda öz xidmətlərini göstərəcəkdir.

Kollegiya iclası məruzə ətrafında çıxışlarla davam edib.

* * *

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində 2020-ci ilin birinci yarımili ərzində görülən işlərə dair kollegiya iclası keçirilib.***



Kollegiya iclasını Naxçıvan Muxtar Respublikasının Ədliyyə naziri, baş ədliyyə müşaviri Daşqın Rəhimov açaraq məruzə ilə çıxış edib. Bildirilib ki, hesabat dövründə nazirlikdə və tabe qurumlarda maarifləndirmə və profilaktika tədbirləri ön planda saxlanılıb, məhkəmə qərarlarının vaxtında icrasına diqqət yetirilib, bələdiyyələrin fəaliyyətinə nəzarət artırılıb, bələdiyyə orqanlarına zəruri metodik köməkliklər göstərilib. Nazirliyin aparatında və tabe qurumlarda icra və əmək intizamına riayət edilməsi diqqət mərkəzində saxlanılıb.

Hesabat dövrü icra və probasiya şöbə və bölmələrinin icraatına 1507 icra sənədi daxil olub, bunlardan 600 iş tam icra olunub, 816 iş icraya yönəlib, 43 iş geri qaytarılıb, 48 iş ərazi aidiyyəti üzrə göndərilib. Ötən illərdən icrası davam etdirilən 1245 iş tam icra olunub. Xüsusi fonda 28 min 428 manat pul ödənilib.

Qeyd edilib ki, dövlət notariat ofisləri tərəfindən 5407 müxtəlif məzmunlu notariat əməliyyatları aparılıb, dövlət büdcəsinə 40 min 184 manat dövlət rüsumu ödənilib. Xüsusi notariuslar tərəfindən 20 min 549 əməliyyat aparılıb. Nikah evi və rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 4624 əməliyyat aparılıb və dövlət büdcəsinə 7800 manat dövlət rüsumu ödənilib. Muxtar respublikanın şəhər və rayonlarında fəaliyyət göstərən bələdiyyələrə metodik köməkliklər göstərilib. Bələdiyyələrdən nazirliyə daxil olmuş bələdiyyə aktlarının qanunauyğunluğu araşdırılaraq 1286-ya müsbət rəy verilib, 1 bələdiyyə aktının isə qanunvericiliyin tələblərinə uyğun qəbul edilmədiyi müəyyənləşib və ləğv edilməsi təmin olunub. Məhkəmə Ekspertizası Mərkəzinə müxtəlif ekspertiza sahələri üzrə daxil olan ekspertiza işi üzrə 67 rəy, 16 arayış verilib, 7 ekspertiza işi icra olunmadan geri qaytarılıb, 4 işin icraatı vəsatət verildiyindən dayandırılıb. Ədliyyə orqanlarına göstərilən dövlət qayğısı sayəsində ekspertiza mərkəzinə alınmış ən müasir avadanlıqların gətirilməsi təmin edilib. Penitensiar Xidmət qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi istiqamətində işləri davam etdirib, məhkum və həbs olunmuş şəxslərin hüquqları qorunub, təhlükəsizlik tədbirləri gücləndirilib.

Sonda məruzə ətrafında çıxışlar dinlənilib.



Naxçıvan Dövlət Universitetində altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üçüncü sessiyasından irəli gələn vəzifələrə və cari ilin birinci yarısının yekunlarına dair müşavirə keçirilib. Universitetin rektoru, dosent Elbrus İsayev çıxışında qeyd edib ki, təhsil siyasəti bəhs olunan dövrdə də uğurla davam etdirilib, universitet kampusunda yenidənqurma və bərpa işləri aparılıb. Struktur dəyişikliklərinə əsasən Beynəlxalq münasibətlər və xarici dillər, Sosial idarəetmə və hüquq fakültələrinin bazasında 2 fakültə – Beynəlxalq münasibətlər və hüquq, Xarici dillər fakültələri, İqtisad fakültəsinin bazasında isə İqtisadiyyat və İdarəetmə fakültəsi yaradılıb. Universitetin maddi-texniki imkanları, müasir tədris üsulları nəzərə alınmaqla İqtisadiyyat və idarəetmə fakültəsinin bazasında universitetdə ilk dəfə tədrisi ingilis dilində olacaq İqtisadiyyat ixtisası açılıb. Universitetin yeni rəsmi internet portalının yenidən qurulması prosesi yekunlaşmaq üzrədir.

Qeyd olunub ki, 2019-2020- ci tədris ilinin payız semestrində əyani şöbədə 1460, qiyabi şöbədə 160, əlavə ali təhsil üzrə isə 103 imtahan keçirilib. Universitet üzrə müvəffəqiyyət faizi 72,6, keyfiyyət faizi isə 38,7 faiz olub.

Rektor vurğulayıb ki, ali təhsil müəssisələrində pandemiya ilə əlaqədar olaraq təlim-tərbiyə, tədris prosesində fasilə yarandığı dövrdən etibarən Azərbaycanda ilk dəfə olaraq Naxçıvan Dövlət Universiteti üçün "Elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia" layihəsi çərçivəsində yaradılan LMS Learning Management System – Öyrənmənin idarəolunması sisteminin verdiyi imkanlar hesabına universitetdə 15 mindən artıq onlayn dərs keçilib. Tədris ilinin ikinci yarısında professor-müəllim heyəti və tələbələrin elektron məlumat bazası yaradılıb, ilk dəfə olaraq tələbələrin elektron qiymətləndirilməsi həyata keçirilib.

Hesabat dövrü ərzində ali təhsil ocağının beynəlxalq əlaqələri sahəsindəki uğurlarından bəhs edən rektor diqqətə çatdırıb ki, Türkiyənin 11 universiteti ilə "Mövlana" proqramı çərçivəsində qarşılıqlı əməkdaşlıq müqavilələri yenilənib. Avropa İttifaqının "Erasmus+" proqramının "PETRA" layihəsi çərçivəsində universitetdə Təlim-Tədris Mərkəzi və Elektron laboratoriya istifadəyə verilib. Dünyanın 9 ölkəsindən 787 əcnəbi tələbənin təhsil aldığı universitet əcnəbi tələbələrin sayca üstünlüyü ilə seçilən ali təhsil ocağı imicini qoruyub. Xarici tələbələr pandemiya dövründə də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin yüksək diqqət və qayğısı ilə əhatə olunub. 164 əcnəbi tələbəyə biraylıq ərzaq yardımının təqdim olunması, Ramazan bayramı münasibətilə iftar payı verilməsi, maddi yardım almaq üçün elektron kartların təqdim edilməsi onlara maddi və mənəvi dəstəyin bariz ifadəsidir.

Çıxışda kafedra müdiri Məftun Əliyevin AMEA-nın İdarəetmə İnstitutunun əməkdaşları ilə birgə hazırladığı ixtiraya görə Avrasiya Patent Təşkilatının Avrasiya Patent İdarəsi tərəfindən aldığı patent universitetin elmi uğuru kimi qiymətləndirilib. Bildirilib ki, bu ilin altı ayı ərzində universitet əməkdaşlarının 1 dərsliyi, 4 dərs vəsaiti, 2 monoqrafiyası, 4 proqram və metodik göstərişi, 2 metodik vəsaiti, 31-i xaricdə olmaqla, 130 elmi məqaləsi çap olunub.

Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı ilə "Clarivate Analytics" (Tomson Reuters) təşkilatı ilə birgə "Web of science" beynəlxalq elmi bazasının imkanları və effektiv istifadə qaydaları" mövzusunda muxtar respublikada ilk dəfə vebinar təlimin keçirilməsi müəllimlərin beynəlxalq jurnallara çıxışının təmin edilməsi üçün qiymətli mənbə rolunu oynayıb.

Rektor qeyd edib ki, universitetdə 109 ixtisas 36 təşkilata hamiliyə verilib, ali təhsil ocağında gənclərin layihələrini, ideyalarını dəstəkləmək üçün İnnovasiya mərkəzi yaradılıb və startap layihələrin sayı daha da artıb. Hazırda 10-dan çox layihə üzərində iş aparılır.

Çıxışda müşavirə iştirakçılarının diqqətinə çatdırılıb ki, aprel-iyun aylarında tədrislə yanaşı, təlim-tərbiyə prosesi də onlayn şəkildə davam etdirilib. Vurğulanıb ki, artıq universitet Elmi kitabxanası *lib.ndu.edu.az* saytı vasitəsilə 24 saat onlayn fəaliyyət göstərir.

Sonra məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

# Yarımilin yekunları və sessiyadan irəli gələn vəzifələr müzakirə edilib



*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üçüncü sessiyasından irəli gələn məsələlər, 2020-ci ilin birinci yarısında görülən işlər və qarşıda duran vəzifələrə dair kollegiya iclasında nazir Rəhman Məmmədov çıxış edib.*

Bildirilib ki, dövlət qayğısı sayəsində təhsil müəssisələrinin maddi-tədris bazasının möhkəmləndirilməsi sahəsində işlər 2020-ci ilin birinci yarısında da davam etdirilib, ötən müddət ərzində Ordubad rayon Vənənd və Şərur rayon Muğancıq-Mehrab kənd tam orta məktəb binaları tikilib və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib, Şərur rayon məktəbdənkənar təhsil müəssisələrində və Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseydə innovativ dərnəklər yaradılıb.

Nazir qeyd edib ki, müəllim nüfuzunun artırılması, təhsil işçilərinin fəaliyyətinin stimullaşdırılması da diqqətdə saxlanılıb, təhsil sahəsində səmərəli fəaliyyətlərinə görə 2 müəllim "Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi" fəxri adı ilə, nazirliyin bir əməkdaşı isə "Tərəqqi" medalı ilə təltif olunub. Bunlarla yanaşı, təhsil və idman sahəsində xüsusi istedadı ilə fərqlənən 2 şagird Ali Məclis Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülüb, onların adı Gənc istedadların "Qızıl kitabı"na yazılıb.

Vurğulanıb ki, hesabat dövründə, ümumilikdə, 14 interaktiv, 370 saat isə nümunəvi dərs tədris olunub, seminarlar, elmi-praktik konfranslar və müşavirələr keçirilib, laborator təlimlər, ixtisasartırma kursları təşkil edilib.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Şahmat Federasiyasının birgə təşkilatçılığı ilə iyulun 20-də şahmatı tədris edən müəllimlərin növbəti ödənişsiz sertifikasiya imtahanı keçirilib, uğurlu nəticə göstərən 18 müəllim yeni tədris ilindən etibarən ümumtəhsil məktəblərində şahmatı tədris etmək hüququ qazanıb.

2020-ci ilin I yarısında müəllimlərin işə qəbulu üzrə keçirilən imtahanlarda iştirak edənlərdən 70-i müəllim, 55-i isə vəzifələrə təyin olunub.

Nazir bildirib ki, Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən hər il keçirilən təhsildə inkişaf və innovasiyalar üzrə qrant müsabiqəsində ilk dəfə olaraq muxtar respublikadan 27 layihə təqdim edilib, onlardan fərdi kateqoriya üzrə 3, ümumtəhsil müəssisələri kateqoriyası üzrə isə 2 layihə qalib elan olunub. Respublika fənn olimpiadasında da muxtar respublikanın məktəbliləri uğurlu nəticələr göstərərək 4 qızıl, 7 gümüş, 13 bürünc olmaqla, ümumilikdə, 24 medal qazanıblar.

2020-ci ildə ən yüksək nəticə göstərən 60 şagird Naxçıvan Qızlar Liseyinə, 60 şagird isə Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə qəbul olub. Hesabat dövründə intellektli, istedadlı şagirdlərin rəsm və dekorativ əl işlərindən nümunələr, həmçinin həmin şagirdlər barədə foto və məlumatlar olan "İstedadlı şagirdlər" albom-kataloqu hazırlanıb.

Nazir qeyd edib ki, peşə hazırlığının təşkilinə dair keçirilən seminarlarda 34 qrupdan 849 müdavim məzun olaraq istehsalatın müxtəlif sahələrində fəaliyyətə başlayıb.

Kollegiya iclası məruzə ətrafında çıxışlarla davam etdirilib.

* * *



***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində keçirilən kollegiya iclasında çıxış edən xidmətin rəisi, III dərəcəli dövlət miqrasiya xidməti müşaviri Şahin Nəbiyev geniş məruzə ilə çıxış edib.***

Bildirilib ki, xidmətin fəaliyyət istiqamətlərində prioritet yer tutan qanunsuz miqrasiyaya qarşı mübarizə tədbirləri cari ilin birinci yarımili ərzində də uğurla həyata keçirilib. Belə ki, muxtar respublika ərazisində qeydiyyatsız olan, qanunsuz yaşayan, qanunsuz əmək fəaliyyəti ilə məşğul olan, habelə müvəqqəti yaşamaq üçün icazə vəsiqəsini itirən 80 əcnəbi aşkarlanıb. Həmçinin miqrasiya sahəsində qanunvericiliyin tələblərini pozmuş 1 əcnəbi öz ərizəsi əsasında könüllü olaraq xidmətin Qanunsuz miqrantların saxlanılması mərkəzində saxlanılıb.

Vurğulanıb ki, hesabat dövrü ərzində əcnəbilərin olduğu yer üzrə qeydiyyatı, müvəqqətiolma müddətinin uzadılması, müvəqqəti və daimi yaşama, iş icazələrinin verilməsi, vətəndaşlıq məsələləri və xidmətin səlahiyyətlərinə aid olan digər məsələlərlə bağlı, ümumilikdə, xidmətə 1930 müraciət daxil olub. Həmin müraciətlərdən 1233-ü əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyatı ilə bağlı olub. Müraciətlərin hər biri xidmət tərəfindən dəqiq və operativ qaydada cavablandırılıb.

Cari ilin ötən dövründə xidmətə əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazənin verilməsi ilə bağlı 405, daimi yaşamaq üçün icazənin verilməsi ilə əlaqədar 9, müvəqqəti yaşama icazəsinin yenidən rəsmiləşdirilməsi üçün 5, əcnəbilərin Naxçıvan Muxtar Respublikasında haqqıödənilən əmək fəaliyyəti ilə məşğul olması üçün iş icazəsinin verilməsi ilə bağlı 133, Azərbaycan Respublikası vətəndaşlığına mənsubiyyətin müəyyənləşdirilməsi ilə əlaqədar isə 100 müraciət daxil olub. Həmin müraciətlərin icrası mövcud qanunvericiliyə uyğun olaraq həyata keçirilib.

"Fərəhli haldır ki, bu gün muxtar respublikamızın mövcud sosial-iqtisadi inkişafı sayəsində burada yaşamaq, işləmək, təhsil almaq, o cümlədən ölkəmizin vətəndaşı olmaq istəyənlərin sayı hər ötən il artan dinamika ilə inkişaf edir", – deyən Şahin Nəbiyev reallaşdırılan çoxşaxəli, uğurlu siyasətin respublikanı tərk edib digər ölkələrə getmiş Azərbaycan vətəndaşlarının da geri qayıtmasına çox ciddi təsir etdiyini vurğulayıb.

Qeyd olunub ki, həyata keçirilən tədbirlərin məntiqi nəticəsi olaraq birinci yarımil ərzində Azərbaycan Respublikasının vətəndaşlığına qəbulla bağlı 2 müraciət daxil olub. Həmin müraciətlər hazırda icra mərhələsindədir.

Bildirilib ki, muxtar respublika ərazisində müvəqqəti olan və yaşayan, habelə məcburi dayanma ilə bağlı əcnəbilərin olma və yaşamalarının leqallaşdırılması üçün xidmət tərəfindən bir sıra ciddi addımlar atılıb və onların ölkədə olmaları qanuniləşdirilib. Bu səbəbdən hesabat dövründə 223 əcnəbinin müraciətləri nəzərə alınaraq Azərbaycan Respublikasında müvəqqətiolma müddəti uzadılıb. Həmin müraciətlər əcnəbilərin təhlükəsizliyi baxımından həyata keçirilən bu tədbirlərin, dövlət tərəfindən onlara göstərilən humanist mahiyyətin nəticəsidir.

İclas məruzə ətrafında çıxışlarla davam etdirilib.

* * *



Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətində keçirilən kollegiya iclasında xidmətin rəisi Müslüm Cabbarzadə altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üçüncü sessiyasında qarşıya qoyulan vəzifələr və 2020-ci ilin birinci yarısında yerinə yetirilən işlərə dair məruzə ilə çıxış edib. Bildirilib ki, bəhs olunan dövrdə muxtar respublikada daşınmaz əmlakın qeydiyyatı və torpaq münasibətlərinin tənzimlənməsi sahəsində qarşıya qoyulmuş vəzifələrin icrası diqqətdə saxlanılıb. Torpaqların elektron kadastr uçotu informasiya sisteminin təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilib. Cari ilin ötən dövründə 7157 daşınmaz əmlak obyekti plana alınıb və bununla da muxtar respublikada torpaq sahələrinin plana alınması başa çatdırılıb.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən verilmiş tapşırıqların icrası məqsədilə Duzdağ ərazisi xəritələşdirilib, muxtar respublikanın bütün şəhər və rayonları üzrə suvarılan torpaq sahələrinin xəritələri nəşr olunub, aid mərkəzi və yerli icra hakimiyyəti orqanlarına göndərilib.

Xidmətin hamiliyinə verilmiş ixtisaslarda təhsil alan tələbələrə nəzəri və praktik məşğələlər keçirilib, iki tələbə ödənişli işlərə cəlb olunub.

Qeyd edilib ki, 2020-ci ilin 6 ayı ərzində muxtar respublika üzrə 2787 daşınmaz əmlak obyekti dövlət qeydiyyatına alınıb, 2315 texniki sənəd hazırlanıb. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə hazırlanan mülkiyyət sənədlərinin sayı 8 faiz artıb. Yeni yaranmış 117 daşınmaz əmlak obyektinə ünvan verilib, 444 torpaq sahəsinin plan-ölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınıb. Səyyar xidmət qrupu tərəfindən muxtar respublika üzrə 38 yaşayış məntəqəsində 230 vətəndaşın müraciətinə baxılıb, 182 vətəndaşa elektron xidmətlər göstərilib.

Kollegiya iclası məruzə ətrafında çıxışlarla davam etdirilib.



Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyində keçirilən kollegiya iclasında nazir Natəvan Qədimova məruzə ilə çıxış edib. Bildirilib ki, nazirlik tərəfindən yanvar-mart aylarında ənənəvi qaydada, aprel-iyul aylarında isə pandemiya ilə əlaqədar onlayn mədəni tədbirlərin keçirilməsi diqqətdə saxlanılıb. Hesabat dövründə əlamətdar və tarixi günlərlə, görkəmli şəxsiyyətlərin anım günləri və yubileyləri ilə bağlı tədbirlər keçirilib, konsert proqramları və tamaşalar nümayiş etdirilməklə sakinlərin asudə vaxtının səmərəli təşkili diqqət mərkəzində saxlanılıb.

Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası Təhsil və Mədəniyyət nazirliklərinin birgə təşkilatçılığı ilə muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdləri arasında Məktəblilərin dram müsabiqəsi keçirilib, qaliblər mükafatlandırılıb.

Vurğulanıb ki, aprel-iyul ayları ərzində, ümumilikdə, 10 onlayn konsert təşkil edilib, tamaşaçılara 11 onlayn tamaşa nümayiş olunub, nazirliyin tabeliyində fəaliyyət göstərən muzeylərdə 9 onlayn ekskursiya keçirilib. Həmin tədbirlər Naxçıvan Dövlət Televiziyasında və onun internet resurslarında, nazirliyin rəsmi internet saytında və sosial şəbəkə hesablarında canlı olaraq yayımlanıb.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Bəstəkar Məmməd Məmmədovun 100 illik yubileyinin keçirilməsi haqqında" 2020-ci il 28 yanvar tarixli Sərəncamının icrası ilə əlaqədar aprel ayında Naxçıvan Dövlət Filarmoniyasının solistlərinin iştirakı ilə Məmməd Məmmədovun əsərlərindən ibarət konsert proqramı təşkil edilib və Naxçıvan televiziyasının efirində, nazirliyin rəsmi vebsaytlarında, "Youtube" videokanalında və sosial şəbəkələrdə nümayiş olunub. Həmçinin Filarmoniyanın Xalq Çalğı Alətləri Orkestrinin bəstəkar Məmməd Məmmədovun əsərlərindən ibarət onlayn konserti olub, bəstəkarın musiqi əsərlərindən ibarət kitabın nəşri ilə əlaqədar iş aparılıb.

Xalq yaradıcılığı nümunələrinin təbliği və tanıdılması ilə bağlı həyata keçirilən tədbirlərdən də bəhs edən Natəvan Qədimova qeyd edib ki, "Yallılar dünəndən bu günə" kitabının hazırlanması ilə bağlı iş diqqətdə saxlanılıb, yallıların çəkilişi aparılıb və sosial şəbəkələrdə yallı sənətinin təbliği ilə əlaqədar paylaşımlar edilib. Ümumilikdə, xalq yaradıcılığı ilə bağlı 63 videomaterial hazırlanıb. Aprel-iyul ayları ərzində rayon (şəhər) mədəniyyət şöbələri tərəfindən sosial şəbəkələrdə 4 min 376 paylaşım edilib. Həmin dövrdə ölkə miqyasında ilk dəfə olaraq nazirliyin təşkilatçılığı ilə onlayn "Evdə qal, sən də yarat!" və "Milli ornamentlərimiz rəsm əsərlərində" adlı rəsm, "Milli dəyərlərimiz düşüncəmizdə" adlı esse, "Bir neçə dəqiqədə mədəniyyət" adlı videoçarx və "Saz sənətini yaşadırıq" adlı onlayn saz ifaçılığı müsabiqələri keçirilib. İyun ayından etibarən isə il ərzində davam edəcək "Mədəniyyətin izi ilə" sosial mədəniyyət layihəsinə start verilib.

Qeyd olunub ki, "Oxunması zəruri olan kitabların Siyahısı"na daxil olan kitabların mütaliəsinin təşviqi ilə əlaqədar yanvar-mart aylarında, ümumilikdə, 92 kitab müzakirəsi olub. Bundan başqa, muxtar respublikada fəaliyyət göstərən kitabxanalar tərəfindən fiziki imkanları məhdud şəxslər də olmaqla, ümumilikdə, 94 sakinə səyyar kitabxana xidməti göstərilib. Aprel-iyul aylarında Naxçıvan Musiqi Kollecinin və muxtar respublikada fəaliyyət göstərən təhsil müəssisələrinin müəllimləri tərəfindən tədris proqramına uyğun, ümumilikdə, 13 min 940 onlayn dərs keçilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *



Naxçıvan Muxtar Respublikası Gənclər Fondunda keçirilən iclası giriş sözü ilə fondun icraçı direktoru Cəbi Quliyev açaraq bildirib ki, hesabat dövründə gənc nəsildə vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın və dünyagörüşün formalaşdırılmasına xidmət edən oxunması zəruri olan kitabların müzakirələri təşkil edilib. Müzakirələrdə, ümumilikdə, 80 gənc iştirak edib.

Qeyd olunub ki, son vaxtlar ölkəmizdə könüllülük hərəkatının geniş vüsət alması gənclərin malik olduqları potensial imkanlarından daha səmərəli istifadə etmələrini şərtləndirir. Məhz bu amillər əsas götürülərək pandemiya şəraitində ölkəmizdə könüllülük əlillərə, kimsəsizlərə, aztəminatlı ailələrə, qocalara, qaçqın və məcburi köçkünlərə, ehtiyacı olan digər kateqoriyaya aid vətəndaşlara kömək edilməsi, insanpərvərliyin, mərhəmətin, bir sözlə, xalqımıza xas olan keyfiyyətlərin təbliği, hüquqi və mədəni maarifləndirmə, sağlam həyat tərzinin təbliği kimi istiqamətlər üzrə həyata keçirilir. Bu gün hansı sahəyə diqqət yetirsək, könüllülərin fəaliyyətini görərik. Artıq muxtar respublikamızda da könüllülük bir çox fəaliyyət sferalarına nüfuz etməklə hərəkat halını alıb, hər bir bölgəni, ictimai həyatın müxtəlif sahələrini, cəmiyyətimizin bütün təbəqələrini əhatə edib, gənclərimizin həyat tərzinə çevrilib. Mart ayında Gənclər Fondu könüllüləri sıralarına yeni gənclər cəlb olunub. 100 nəfər gəncin seçilməsi ilə yeni könüllü qrupu yaradılıb, könüllü gənclər ilkin təlimlərə cəlb edilib.

Bildirilib ki, Gənclər Fondu "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında Sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı" və "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nın icrasında fond üçün nəzərdə tutulan bəndlərin icrasını 2020-ci ilin birinci yarısında da diqqətdə saxlayıb.

Vurğulanıb ki, bəhs olunan dövrdə Gənclər Fondu, ümumilikdə, 2000-ə yaxın gənclə iş aparıb, onlardan 350 nəfəri müxtəlif tədbirlərdə mükafatlandırılıb.

Sonda məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

## Gənc zabitlərlə təlim-metodik toplantı keçirilib



Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsini bu il bitirmiş, hərbi hissələrdə müvafiq vəzifələrə təyin edilərək xidmətini davam etdirən zabitlərlə Əlahiddə Ümumqoşun Orduda keçirilən təlim-metodik toplantıda əsas diqqət zabitlərin taktiki biliklərinin, qərar qəbuletmə bacarıqlarının artırılmasına və xidmətə düzgün istiqamətləndirilməsinə yönəldilib.

Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzindəki müxtəlif təlim trenajorlarında şəxsi heyətin sürücülük və atəş bacarıqları praktik olaraq yoxlanılıb. Toplantıya cəlb edilmiş zabitlərin virtual təlim meydançasında qazandıqları biliklərin real döyüş şəraitinə yaxın təşkil edilmiş məşğələlərdə daha da təkmilləşdirilməsi məqsədilə praktik atış çalışmaları yerinə yetirilib.

Toplantı çərçivəsində Naxçıvan Muxtar Respublikasının gəzməli-görməli, tarixi-mədəni yerlərinə və muzeylərinə ekskursiyalar təşkil olunub. Həmçinin gənc zabitlər Əlahiddə Ümumqoşun Ordunun birləşmə və hissələrində, ön xətdəki mövqelərində şəxsi heyətin sosial-məişət və xidmət şəraiti ilə də tanış olublar.

Təlim toplantısı yekun tədbiri ilə başa çatıb. Tədbirdə polkovnik Mənsum Əhmədov məqbullar götürülən zaman gənc zabitlərin yüksək nəticələr göstərdiklərini qeyd edib.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsini bu il bitirmiş, hərbi hissələrdə müvafiq vəzifələrə təyin edilərək xidmətini davam etdirən zabitlərlə keçirilən təlim-metodik toplantının əhəmiyyətindən danışıb və toplantıda nümunəvi iştirak etdiklərinə görə zabitlərin bir qrupuna təşəkkür elan edib.

**Nəriman NƏCƏFOV**

## Turizm potensialının təbliği diqqətdə saxlanılıb



Naxçıvan Muxtar Respublikasının Turizm Departamentində keçirilən tədbiri giriş sözü ilə açan departamentin direktoru Əkbər Novruzov hesabat məruzəsi ilə çıxış edib. Bildirilib ki, hesabat dövrü ərzində mərkəzin elektron poçt ünvanına 33, "Facebook" sosial şəbəkəsinə 20, telefon vasitəsilə isə 12 müraciət daxil olub. Dörd İran, 6 Almaniya, 2 Rusiya, 1 Qazaxıstan, 3 Türkiyə, 2 Pakistan, 2 ABŞ vətəndaşı, 2 nəfər Bakı və 2 nəfər Naxçıvan şəhər sakini olmaqla, cəmi 24 nəfər mərkəzə gəlib və onların müraciətləri cavablandırılıb.

Qeyd olunub ki, 15 fevral 2020-ci il tarixdə İran İslam Respublikasının paytaxtı Tehran şəhərində Azərbaycanın İrandakı səfirliyi ilə "Aysan Pərvaz" şirkətinin təşkil etdiyi İran və Azərbaycan üzrə ikinci ixtisaslaşmış turizm simpoziumunda Naxçıvan Muxtar Respublikası təmsil olunub, muxtar respublikanın turizm potensialı haqqında simpozium iştirakçılarına geniş məlumat verilib. Simpoziumda ölkəmizin, eləcə də muxtar respublikanın turizm potensialını əks etdirən videoçarxlar nümayiş etdirilib.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamına əsasən 6 mart 2020-ci il tarixdə "Turizm könüllüsü" layihəsinin iştirakçıları üçün Naxçıvan şəhəri üzrə piyada marşrutunun proqramına əsasən ekskursiya təşkil olunub. Həmçinin hesabat dövründə departamentə "AzTourism" adlı bir ədəd startap layihə təqdim edilib, layihə müvafiq prosedura uyğun şəkildə qiymətləndirilib.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**

*Beynəlxalq təşkilatlar və ekspertlərin vaxtaşırı olaraq yaydıqları hesabatlara görə, bu gün Azərbaycan Ordusu dünyanın ən yaxşı təchiz olunmuş və döyüş qabiliyyətli 50 ordusu sırasına daxildir. Ötən dövrdə ordumuzun hərbi kadrlarla formalaşdırılması, hücum və müdafiə xarakterli ən müasir və yüksək dəqiqliyə malik texnoloji silahlarla təchiz olunması, qarşıya qoyulan vəzifələrin vaxtında, dəqiq və layiqincə yerinə yetirilməsi Silahlı Qüvvələrimizin peşəkarlığını xeyli artırıb. Bütün bunlara xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən əsası qoyulan ordu quruculuğu sahəsində görülən işlərin nəticəsində nail olunub.*



*Ordum varsa, yurdum var*

## Naxçıvanda ordu və hərbi infrastruktur quruculuğu imkanları genişləndirilir





Bu işlər Naxçıvan Muxtar Respublikasında da davamlı olaraq həyata keçirilir. Muxtar respublikanın hərbi təhlükəsizliyini ən yüksək səviyyədə həyata keçirən Əlahiddə Ümumqoşun Ordu yarandığı gündən daim inkişaf edərək özünün çevik döyüş potensialını formalaşdırıb, xalq-ordu birliyi çərçivəsində şəxsi heyətin vətənpərvərlik ruhu ən yüksək səviyyəyə çatdırılıb. İki il bundan əvvəl bu ordunun tarixi salnaməsinə böyük hərflərlə yazılmış Günnüt zəfəri və bu uğurlu əməliyyatdan sonra düşmən ərazisindəki strateji kommunikasiyaların nəzarət altına alınması Əlahiddə Ümumqoşun Ordunu rəsmi İrəvan üçün əsl problemə çevirib. Xüsusilə bu günlərdə məlum dövlət sərhədində yaşanan gərginliyi Naxçıvan istiqamətinə də yönəltmək istəyən düşmənin yerindəcə burnunun ovulması ordumuzun gücünü bir daha ortaya qoydu.

Təbii ki, ordu quruculuğu sahəsində görülən mühüm işlərdən biri də tikinti-quruculuq və infrastruktur tədbirləridir. Bu tədbirlər ona görə mühüm işlərdən sayılır ki, lazımi infrastruktur yaratmadan orduda peşəkarlığı təmin etmək mümkün deyil. Birinci, ona görə ki, dövrün tələblərinə uyğun infrastruktur qurmadan müasir silah-sursatın lazımi şəraitdə mühafizəsinə nail olmaq, ondan praktik istifadə vərdişlərinə yiyələnmək çətindir. Digər tərəfdən bu gün mühüm təyinatlara malik silahların əsas idarəetmə bazası elektron hesablama texnologiyalarına əsaslandığından, davamlı enerji və rabitə axınına malik olmaq ən mühüm amillərin başında gəlir. Belə davamlılıq isə yalnız müasir infrastruktura malik obyektlərin yüksək təchizatından asılıdır. Həmçinin müasir quruculuq obyektləri şəxsi heyətin müasir tələblər səviyyəsində qidalanması, istirahəti, nəzəri və təcrübi təlimlərdə iştirakı üçün vacib amillərdəndir. Bunu da söyləmək lazımdır ki, hərbçi ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər həyatını bu peşəyə həsr etmiş insanların psixoloji baxımdan əhval-ruhiyyəsinin daim yüksək səviyyədə olmasına şərait yaradır, bu da ordu heyəti üçün çox mühümdür. Bu baxımdan tikinti-quruculuq tədbirləri ordu quruculuğu prosesində mühüm yerə malikdir. Məhz bütün bu tərəfləri nəzərə aldıqca bir daha yəqin edirsən ki, muxtar respublikamızda ordu quruculuğu çərçivəsində həyata keçirilən tədbirlər böyük əhəmiyyət daşıyır. Bir neçə gün bundan əvvəl Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin cari ilin ilk altı ayının yekunlarına dair açıqladığı məlumatlarda da ordu quruculuğu sahəsində görülmüş işlərin tərkibində tikinti-quruculuq tədbirlərinin kifayət qədər çox olduğunu görürük. Belə ki, komitənin məlumatına görə, muxtar respublikada ordu quruculuğu istiqamətində görülən işlərə uyğun olaraq 2020-ci ilin yanvar-iyun aylarında Naxçıvan şəhərində istirahət parkının tikintisi, yataqxananın əsaslı təmiri başa çatdırılıb, iki qərargah binasının, iki əsgər yataqxanasının, iki anbarın, hərbi zavodun, mərkəzi hərbi xəstəxananın tikintisi davam etdirilib.









Həmçinin Babək rayonunda beş avtomobil saxlancının əsaslı təmiri başa çatdırılıb, vertolyot meydançasının, avtomobil saxlancının və iki yeraltı saxlancın tikintisi davam etdirilir.

Culfa rayonunda retranslyasiya məntəqəsinin tikintisi, Sədərək rayonunun Heydərabad qəsəbəsində əsgəri-yaşayış kompleksinin yenidən qurulması, Şahbuz rayonunda üç anqarın tikintisi başa çatdırılıb, yaşayış binasının tikintisi, əsgər yataqxanasının əsaslı təmiri davam etdirilir.

Şərur rayonunda isə 3-cü Sərhəd Zastavası üçün xidmət və yaşayış kompleksinin tikintisi başa çatdırılıb, 8-ci Sərhəd Zastavası üçün və Daxili Qoşunların hərbi hissəsində infrastruktur obyektlərinin tikintisi davam etdirilir.

Yeri gəlmişkən, bəhs edilən dövrdə hərbi qulluqçuların mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə Naxçıvan hərbi şəhərciyində və Sədərək rayonunda zabit-gizir ailələrinə yeni xidməti mənzillər təqdim edilib.

Qeyd edək ki, hazırda muxtar respublikada hərbi infrastrukturun yenilənməsi istiqamətində mühüm addımlar atılır. Bu günlərdə qardaş Türkiyə Respublikasından xüsusi tikinti-inşaat texnikalarının gətirilməsi bunu bir daha təsdiq edir. Bu texnikalar "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında hərbi maliyyə əməkdaşlığı haqqında Saziş"ə əsasən ötən ildən başlayaraq gətirilir. Əlahiddə Ümumqoşun Orduya təhvil verilən texnikalar davamlılığı, yanacağa qənaəti və rahatlığı ilə seçilir. Sadalanan tərəfləri ilə seçilən sementdaşıyan, beton-nasos, betonqarışdıran və asfalt-beton daşıyan maşınlar sürücünün və nəqliyyat vasitələrinin təhlükəsizliyinə önəm verilməklə istehsal olunub. Müasir dizayn və texnologiyalı bu maşınlar Əlahiddə Ümumqoşun Orduda təmir-tikinti işlərinin və yol infrastrukturunun yenilənməsinin daha keyfiyyətlə aparılmasına imkan yaradacaq. Qeyd edək ki, inşaat sahələrində çətin şərtlər üçün istehsal edilmiş, gücü və möhkəmliyi ilə seçilən bu texnikalardan əlavə, yolxətləyən maşın və qoşqular da istifadəyə verilib. Bu qoşqular keyfiyyəti və müasirliyi ilə daşınma və yardımçı təsərrüfat işlərini daha da asanlaşdıracaq.

Bu gün ordu quruculuğu sahəsində görülən işlər öz axarında davam etdiyi kimi, şəxsi heyətin peşəkar döyüş hazırlığı da diqqət mərkəzində saxlanılır. İyulun 27-də Naxçıvana gələn Türkiyə Silahlı Qüvvələrinin müxtəlif hərbi birləşmələri ilə ordumuzun yeni təlimlərə başlaması bunu bir daha təsdiq edir. Belə ki, Azərbaycan və Türkiyə respublikaları arasında imzalanmış hərbi əməkdaşlıq haqqında sazişə əsasən Naxçıvanda hər iki ölkənin quru qoşunları və hərbi hava qüvvələrinin iştirakı ilə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimləri keçirilir. Birgə təlimlərə iki ölkənin ordularının şəxsi heyəti, zirehli texnikası, artilleriya qurğuları və minaatanları, hərbi aviasiya və hava hücumundan müdafiə vasitələri cəlb edilib. Hərbi təlimlərin keçirilməsi hər iki ordunun döyüş atışlı taktiki təcrübəsini artırmaqla yanaşı, düşmənlərimizə də bir ismarıcdır. Bütün bunlar isə onu göstərir ki, Naxçıvanın təhlükəsizliyi yüksək səviyyədə təmin olunur və bu təhlükəsizlik əmin əllərdədir.

**Səbuhi HƏSƏNOV**

# Yarımilin yekunları müzakirə edilib



2020-ci ilin I yarımilində “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətində görülmüş işlərin yekununa dair tədbir keçirilib. Cəmiyyətin direktoru Mahir Əliyev tədbirdə çıxış edərək bildirib ki, Cari ilin 6 ayı ərzində Culfa Lokomotiv Deposunda lokomotivlər 129 min 549 kilometr yürüş edib, 33 milyon 725 ton-kilometr brutto yük daşıyıb. Hesabat dövründə faktiki olaraq 60 min 300 ton yük daşınıb. Bunun 57 min 960 tonu qum-çınqıl, 1560 tonu daş məmulatı, 480 tonu travertin plitə, 60 tonu kərpic məmulatı, 240 tonu isə tikinti qumu olub. Cari ilin 6 ayında yük dövriyyəsinin həcmi faktiki 5 milyon 24 min ton-kilometr olub.

Qeyd olunub ki, sərnişin dövriyyəsinin həcmi faktiki 1 milyon 563 min sərnişin-kilometr olub. Ötən 6 ay ərzində Şərur-Culfa, Ordubad-Şərur yük-sərnişin qatarları vasitəsilə 42 min 981 nəfər sərnişin daşınıb, bu xidmətdən cəmiyyətin hesabına 14 min 444 manat vəsait daxil olub. Hesabat ilinin 6 ayında 76 min 107 kiloqram poçt-baqaj yükü daşınıb ki, bundan da cəmiyyətin hesabına 1157 manat vəsait daxil olub.

Diqqətə çatdırılıb ki, “Naxçıvan Dəmir Yolları” MMC üzrə 2020-ci ilin 6 ayında dəmir yolunun ayrı-ayrı sahələrində sağlamlaşdırma işləri aparılaraq qatarların hərəkətinin təhlükəsizliyi təmin edilib və bir sıra tədbirlər həyata keçirilib. Belə ki, Culfa Lokomotiv Deposunda 18 lokomotiv texniki baxışdan keçirilib, 11 lokomotiv isə cari təmir edilib. Culfa İstismar Vaqon Deposunda 32 vaqon, o cümlədən 6 yarımvaqon, 5 sistern vaqonu, 5 platforma vaqonu, 2 refrijerator vaqonu, 5 örtülü vaqon, 9 sərnişin vaqonu cari təmir edilib.

Qeyd olunub ki, hesabat dövründə Texniki İnzibati Binaların Təmir-Tikinti İdarəsi tərəfindən cəmiyyətin inzibati binasının həyətyanı ərazisində aparılan abadlaşdırma işləri yüksək səviyyədə başa çatdırılıb. Muxtar respublikamızda dəmir yolu infrastrukturunun texniki bazasının gücləndirilməsi istiqamətində həyata keçirilən ardıcıl tədbirlərin davamı olaraq Culfa İstismar Vaqon Deposunun inzibati binasında yenidənqurma, təmir sexində isə tikinti işləri aparılıb.

Sonra çıxışlar olub.

* * *

Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətində keçirilən iclası xidmətin rəisi Vəli Novruzov açaraq “2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında baytarlıq təbabətinin inkişafı üzrə Dövlət Proqramı” istiqamətində görülən işlərdən danışıb. Vurğulanıb ki, cari ilin altı ayı ərzində profilaktik məqsədlə heyvan və quşlarda xəstəliklərə qarşı peyvəndləmə, obyektlərdə isə dezinfeksiya tədbirləri aparılıb və hazırda bu işlər davam etdirilir.

Bildirilib ki, sürülər yaylaqlara aparılmazdan əvvəl şəhər və rayon baytarlıq idarələri tərəfindən yaradılan həkim briqadaları heyvanları kliniki müayinədən keçirib, obalar və yataq yerlərində, su hövzələrinin ətraf ərazilərində dezinfeksiya işləri aparılıb. Muxtar respublika üzrə cari ilin 6 ayı ərzində iribuynuzlu heyvanların cins tərkibinin yaxşılaşdırılması məqsədilə süni mayalama işləri də davam etdirilib. Həmçinin arıçılıq sahəsinin inkişaf etdirilməsi məqsədilə arıçı sahibkarlara pulsuz dərmanlar paylanılıb, qeydiyyata alınan 98 min 400 arı ailəsinə görə sahibkarlara dövlət vəsaiti hesabına subsidiyanın verilməsi təmin edilib.



Diqqətə çatdırılıb ki, hesabat dövründə baytarlıq sahəsində həyata keçirilən quruculuq işləri davam etdirilib, Dövlət Baytarlıq Xidmətində Ali Məclis Sədrinin iştirakı ilə keçirilən səyyar müşavirədə işlərində fərqlənən süni mayalama texniklərinə 5 yeni süni mayalama dəsti və 5 yedəkli motosiklet, baytar həkimlərə isə qiymətli hədiyyələr təqdim olunub.

Qeyd edilib ki, Naxçıvan Dövlət Universiteti və Naxçıvan Dövlət Texniki Kollecinin Baytarlıq təbabəti ixtisasında təhsil alan tələbələr üçün internet vasitəsilə onlayn qaydada videogörüşlər keçirilib.

İclas məruzə ətrafında çıxışlarla başa çatıb.

* * *

*“Naxçıvan” Universitetində cari ilin birinci yarımilinin yekunları və qarşıda duran vəzifələr müzakirə olunub.*

İclası giriş sözü ilə ali təhsil ocağının rektoru, dosent Nurlana Əliyeva açaraq bildirib ki, dövlətimizin hərtərəfli diqqət və qayğısı ilə universitetdə maddi-texniki bazanın müasirləşdirilməsi, tədris prosesinin günün tələbləri səviyyəsində qurulması istiqamətində tədbirlər bu il də davam etdirilib. Belə ki, universitetin fakültələrinin hər birində təlimin keyfiyyətinin yüksəldilməsinə, əyaniliyin möhkəmləndirilməsinə müsbət təsir göstərən texnologiyalardan istifadəyə geniş şərait yaradılıb.



Bildirilib ki, 2019-2020-ci tədris ilində “Naxçıvan” Universitetində 4 fakültə,10 kafedra, 6 şöbə, 4 mərkəz fəaliyyət göstərib. Bu il ali təhsil ocağında 16 ixtisas üzrə 1170 bakalavr, 7 ixtisas üzrə 17 magistr təhsil alıb. Universitetdə tədris prosesinin müasir tələblər səviyyəsində təşkili müvafiq qanunvericiliyə uyğun qurulub.

Qeyd olunub ki, 2020-ci ilin birinci yarımilində pandemiya ilə əlaqədar olaraq universitetdə tədris bütün ixtisaslar üzrə mühazirə mətnlərinin elektron bazaya yerləşdirilməsi yolu ilə davam etdirilib, “Zoom” proqramı vasitəsilə tələbələrə onlayn dərslər keçilib. 2019-2020-ci tədris ilində 15 onlayn elmi-praktik konfrans, 5 kitab müzakirəsi, 1 diskussiya təşkil olunub.

Hesabat dövründə “Naxçıvan” Universiteti beynəlxalq əlaqələrin inkişafı istiqamətində də uğurlar qazanıb. Belə ki, ikili əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi üçün Qomel Dövlət Universiteti (Belarusiya), Əhməd Yəsəvi və İpək Yolu Beynəlxalq universitetləri (Qazaxıstan) və Türkiyənin Sabahattin Zaim Universiteti ilə memorandumlar imzalanıb.

Sonra çıxışlar dinlənilib.

* * *



Naxçıvan Müəllimlər İnstitutunda keçirilən iclasda institutun rektoru Azad Novruzov çıxış edərək bildirib ki, 2019-2020-ci tədris ilində bakalavr səviyyəsində buraxılış kurslarında 5 ixtisas üzrə 302 tələbə olub ki, onların bir neçəsi magistratura səviyyəsində 2 ixtisas üzrə 38 tələbədən hamısı attestasiyadan müvəffəqiyyətlə keçib. İnstitutda 11 ixtisas üzrə bakalavr, 3 ixtisas üzrə magistr hazırlığı aparılır. Hazırda bakalavriat səviyyəsində buraxılış kursları istisna olmaqla, 945, magistratura səviyyəsində 25 nəfər təhsil alır. 2020-2021-ci tədris ilindən əvvəlki ixtisaslarla yanaşı, bakalavr üzrə Fizika müəllimliyi, İnformatika müəllimliyi, Musiqi müəllimliyi, Texnologiya müəllimliyi və Azərbaycan dili və ədəbiyyat müəllimliyi, magistratura üzrə isə Riyaziyyat müəllimliyi və Təsviri incəsənət müəllimliyi ixtisaslarına qəbul aparılacaqdır. 2019-cu ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə Naxçıvan Müəllimlər İnstitutunda fəlsəfə doktoru hazırlığı üzrə doktorantura yaradılıb və qəbul aparılıb.

Vurğulanıb ki, hazırda 87 nəfər əməkdaş Naxçıvan Müəllimlər İnstitutunun profilinə uyğun elm sahələri və istiqamətləri üzrə, əsasən, ölkənin ictimai-siyasi, tarixi proseslər, maddi-mədəni dəyərlərin Naxçıvan regional məsələlərinə aid və digər ümumelmi 87 mövzu üzrə tədqiqatlar aparır.

Cari ilin birinci yarımilində institut əməkdaşlarının, ümumilikdə, 135 əsəri, o cümlədən 12 kitab, kitabça və broşürü, 82 elmi və elmi-metodik məqaləsi və 41 konfrans materialı çap olunub.

Naxçıvan Müəllimlər İnstitutunda 2019-2020-ci tədris ilindən etibarən əcnəbi tələbələrin qəbuluna başlanıldığını bildirən rektor hazırda institutda 6 əcnəbi tələbənin təhsil aldığını vurğulayıb.

Sonda çıxışlar olub, qarşıda duran vəzifələr müzakirə edilib.

**Xəbərlər şöbəsi**

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin təşkilatçılığı və Naxçıvan Dövlət Universiteti İncəsənət fakültəsinin müəllimlərinin iştirakı ilə “Görkəmli bəstəkar Məmməd Məmmədov yaradıcılığı” mövzusunda onlayn tədbir keçirilib.*

# Bəstəkar Məmməd Məmmədova həsr olunmuş tədbir



Tədbiri giriş sözü ilə açan mərkəzin elmi katibi Nihad Tarverdiyev qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2020-ci il yanvarın 28-də “Bəstəkar Məmməd Məmmədovun 100 illik yubileyinin keçirilməsi haqqında” imzaladığı Sərəncam sənətkarın yaradıcılığına verilən yüksək qiymətin təzahürüdür.

Bildirilib ki, qədim diyarımızın yetirdiyi görkəmli sənət adamları müxtəlif illərdə mədəniyyətimizdə və incəsənətimizdə yüksək nailiyyətlər əldə ediblər. Bu uğurların əsasını həmin sənətkarların yaratdıqları mədəni irs təşkil edir ki, belə sənətkarlardan biri də Məmməd Məmmədovdur.

Sonra Naxçıvan Muxtar Respublikasının Əməkdar İncəsənət xadimi, Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının sədri Yaşar Xəlilov çıxış edib. Vurğulanıb ki, Məmməd Məmmədov zəngin fərdi keyfiyyətləri ilə, əsl mənada, hamının sevimlisi olub, xormeyster, dirijorluq, bəstəkarlıq və pedaqoji fəaliyyətləri ilə fədakarcasına çalışaraq millətinə, dövlətinə misilsiz xidmətlər göstərib.

Diqqətə çatdırılıb ki, Məmməd Məmmədov ömrünün sonuna qədər tükənməz bir enerji və sonsuz məhəbbətlə bəstəkarlıq fəaliyyəti ilə məşğul olub. “Gənclik”, “Dostluq”, “Azərbaycanım”, “Ana Vətən”, “Olaydım mən”, “Nəğmə çalır ürəyim”, “Naxçıvan” mahnıları bu gün də öz təravətini, orijinallığını və populyarlığını qoruyub saxlayır. Mahnılarla yanaşı, nəfəsli orkestr üçün marşlar, pyeslər, fortepiano üçün prelüdlər, klarnet və fortepiano üçün “Miniatürlər”, “Qaytağı”, truba və fortepiano üçün “Lirik rəqs”, “Vals”, xor üçün müxtəlif əsərlər də yaradıb. Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, Məmməd Məmmədovun yetirməsi bəstəkar Nazim Quliyevin 1998-ci ildə nəşr etdirdiyi “Bəstəkar Məmməd Məmmədov” kitabı sənətkarın həyat və yaradıcılığını təqdirəlayiq surətdə təcəssüm etdirir.

Naxçıvan Dövlət Universiteti İncəsənət fakültəsinin müəllimi Vüsalə Əmiyeva sənətkarın həyat və yaradıcılığı haqqında geniş məruzə ilə çıxış edib. Bildirilib ki, Naxçıvan Muxtar Respublikasında xor kollektivlərinin, vokal ansamblların, nəfəsli alətlər orkestrinin yaradıcısı, mahnı bayramlarının keçirilməsinin təşəbbüskarı və məhsul bayramlarının fəal aparıcısı, musiqi məktəblərində truba və akkordeon siniflərinin açılmasının səbəbkarı, musiqiçilərin yetişdirilməsində, bir çox dövlət tədbirlərinin ictimai əsaslarla keçirilməsində, ümumiyyətlə, Naxçıvan musiqi mədəniyyətinin inkişafındakı bəstəkar, dirijor, xormeyster, pedaqoq ictimai xadim Məmməd Məmmədovun xidmətləri əvəzsizdir. Bəstəkarın 1956-cı ildə yaratdığı “Əlvan çiçəklər” mahnı və rəqs ansamblı muxtar respublikada musiqi və rəqs mədəniyyətinin inkişafında mühüm mərhələlərdən birini təşkil edir. Vaxtı ilə özünün ilk müəllimini həmişə sevə-sevə xatırlayan Məmməd Məmmədov öz tələbələri, həmkarları tərəfindən də unudulmayıb.

İncəsənət fakültəsinin digər müəllimi, dosent Kamal Əhmədov bəstəkar Məmməd Məmmədovun həyat və fəaliyyəti haqqında maraqlı faktları tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Tədbirin sonunda Naxçıvan Dövlət Universiteti İncəsənət fakültəsinin Fortepiano kafedrasının müəllimi Ülvi Əhmədov Məmməd Məmmədovun “Marş” əsərini fortepianoda ifa edib.

**Xəbərlər şöbəsi**

# Sağlamlıq imkanları məhdud şəxslərə səyyar xidmətlər göstərilir



Muxtar respublikada sağlamlıq imkanları məhdud şəxslərə tibbi-sosial reabilitasiya xidmətləri göstərilir, onların zəruri sosial məsələlərinin həlli və vaxtaşırı tibbi müayinədən keçmələri təmin edilir. Müvafiq kateqoriyalı şəxslərə göstərilən xidmətlərin həcmi və keyfiyyəti daha da artırılır, onların reabilitasiya vasitələri ilə təminatı daim diqqət mərkəzində saxlanılır.

Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üçüncü sessiyasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”nın icrası ilə əlaqədar sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası istiqamətində də zəruri tədbirlər həyata keçirilir. Bu məqsədlə Naxçıvan Protez-Ortopedik Bərpa Mərkəzinə müraciət edən vətəndaşlara, o cümlədən müvafiq kateqoriyadan olan uşaqlara protez xidmətləri göstərilir, onlar ortopedik məmulatlarla təmin olunurlar. Bununla yanaşı, mərkəzin həkim heyəti tərəfindən dayaq-hərəkət sisteminin funksiyalarını itirmiş muxtar respublika sakinlərinə səyyar xidmətlərin göstərilməsi də diqqətdə saxlanılır. Bu tədbirlərin davamı olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə Babək və Ordubad rayonlarında keçirilən səyyar xidmətlər zamanı məhdud fiziki imkanlı şəxslərdən protez və ortez sifarişləri qəbul edilib, zəruri hallarda protezlər təmir edilib. Eyni zamanda müvafiq kateqoriyadan olan şəxslər veloaraba, protez ayaqqabı və digər texniki, köməkçi reabilitasiya vasitələri ilə də təmin olunub.

Sağlamlıq imkanları məhdud şəxslər göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 553